ƏMR
№ 3-21/3-1-F-120/2024

Bakı şəhəri 25 sentyabr 2024-cü il

İqtisadiyyat Nazirliyində 2024-cü il üzrə növbəti “Uğur yolu” müsabiqəsinin təşkili haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə uyğun olaraq, İqtisadiyyat Nazirliyində rəhbər vəzifələrin tutulması üçün yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialın səmərəli istifadəsinin, kadrların düzgün seçilməsi və yerləşdirilməsinin, peşəkarlıq səviyyəsinin artırılmasının, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsi məqsədilə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyində 2024-cü il üzrə növbəti “Uğur yolu” müsabiqəsi (bundan sonra – Müsabiqə) keçirilsin.

2. Müsabiqənin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Elnur Əliyev – iqtisadiyyat nazirinin birinci müavini.

Komissiyanın üzvləri:

Orxan Nəzərli – Dövlət Vergi Xidmətinin rəisi;

Mətin Eynullayev – Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi;

Ayaz Əliyev – Aparat rəhbəri;

Xəqani Abdullayev – iqtisadiyyat nazirinin müşaviri;

Hüseyn Əliyev – iqtisadiyyat nazirinin müşaviri;

Rauf Nəcəfli – iqtisadiyyat nazirinin müşaviri;

Elvin Camalov – iqtisadiyyat nazirinin müşaviri;

Fariz Cəfərov – Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru;

Sevinc İsmayılova – İnsan resursları şöbəsinin müdiri;

Aidə İbrahimova – “İqtisadi Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxsin tabeliyindəki “Təlim Tədris Mərkəzi” publik hüquqi şəxsin İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti

icraçısı.

3. Komissiyaya tapşırılsın ki, müsabiqənin aşkarlıq və şəffaflıq prinsipləri əsasında həyata keçirilməsini təmin etsin.

4. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Katiblik funksiyasının həyata keçirilməsi İnsan resursları şöbəsinə həvalə edilsin. Katibliyin fəaliyyətinə rəhbərliyi İnsan resursları şöbəsinin müdir müavini Nərgiz Muradova həyata keçirsin.

5. İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya və Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsinin müvəqqəti icraçısı Anar Süleymanova tapşırılsın ki, zərurət yarandığı təqdirdə Komissiyanın fəaliyyətinə və işinin təşkilinə ekspertlərin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ödənişli və ya ictimai əsaslarla cəlb edilməsini təmin etsinlər.

6. İnsan resursları şöbəsinin İnsan resurslarının inkişafı və islahatların həyata keçirilməsi sektorunun müdiri, İqtisadi Elmi Tədqiqat İnstitutunun Təlim Tədris Mərkəzinin İdarə heyətinin sədri vəzifəsini icra edən Aidə İbrahimovaya tapşırılsın ki, müsabiqə ilə bağlı təlimlərin təşkili üzrə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

7. Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanova tapşırılsın ki, müsabiqənin təşkilinin bütün mərhələlərinin elektron həllər və proqram təminatını təşkil etsin.

8. Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsinin müvəqqəti icraçısı Anar Süleymanova tapşırılsın ki, müsabiqənin keçirilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini və bu əmrdən irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.

Əsas : iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyevin 03.09.2024-cü il tarixli 3-21/3-5-38398/2024 nömrəli xidməti məruzəsi.

**Nazir** **Mikayıl Cabbarov**

**RAZILAŞDIRILMIŞDIR**

Elnur Əliyev
19.09.2024

**Amil Əlili**
**17.09.2024**

**Nuranə Abbasova**
**16.09.2024**

**Hüseyn Əliyev**
**17.09.2024**

**Tural Isgəndərov**
**16.09.2024**

Elgün Qədirov
16.09.2024

Nərgiz Muradova
16.09.2024

**Ayaz Əliyev**
**17.09.2024**

Abbas Aslanov
16.09.2024

Ehtibar Cəfərov
16.09.2024

**Anar Süleymanov**
**16.09.2024**

**Qumru Əsgərova**
**16.09.2024**

**Sevinc Ismayılova**
**16.09.2024**

Aidə İbrahimova
16.09.2024

İcraçı: İradə Qafarlı
tel.: 310-28-00 (20-32)